# Uzundərənin "uzundərə" taleyi: Qanlı hərbi baza, rəqs, şəhidlər xiyabanı

**Ötən yazımda "Yolumuz Ağdamadır" -dedik, amma unutduq ki, Ağdamdan əvvəl baş əyiləsi, ziyarət ediləsi bir məkan da var: Uzundərə!**

**Başdan başlayım: Oxucularımıza ərz edim ki, niyə bu Uzundərə müqəddəs yer hesab olunur. Əslində şəhidlərimizin qanı süzülən bütün Qarabağ torpaqları müqəddəsdir! Diz üstə çöküb, o torpaqlara sitayiş etmək lazımdır. Amma Uzundərə adi təpəlikdən müqəddəs bir məkana çevrilməsi, sözün həqiqi mənasında "uzundərə" söhbətdir.**

### *Uzun dərənin hekayəti...*

Uzundərə Ağdam-Bərdə yolunun tam da üstündədir. Ağdamlıların da, Ağdama qonaq gələnlərin də yadında olar:

Sovet dönəmində Ağdam şəhər girişini simvolizə edən rəngli daşlarla işlənmiş abidə Uzundərədə təpəliklərin üzərində quraşdırılmışdı. Səhv etmirəmsə, çörək muzeyinin üzərinə çəkilmiş şəbəkəni xatırladırdı. Ağdama düz 6 km qalmış başlayan bu yer müharibədən əvvəl barlı bərəkətli, varlı-dövlətli Göytəpə kəndinin ərazisinə aid idi. O vaxt o cənnət Göytəpəyə Bərdə tərəfdən giriş edəndə bilirdik ki, Uzundərənin körpüsü (tarixi dəmiryol körpüsü Köçərli-Ağdam xətti) bir addımlıqdadır. Amma indi Göytəpə adlı cənnəti bayquşlar xarabalığa çevirdiyinə görə, körpünü görməyincə Uzundərədə olduğumu anlaya bilmədim. Müharibə başlayandan yox, hələ lap qədim zamanlardan bura müqəddəs hesab olunub. Rəvayətə görə, qədimdə ya dağlıq, ya da aran Qarabağa gəlin aparanda gəlin karvanı bu dərədən keçər və burda bir qədər dincələrmişlər. Kişilər, qadınlar, gəlinlər vaxtlarını boş keçirməmək üçün musiqinin müşayiəti ilə oynayarmışlar.

Həmin rəqslərdən birinin - məşhurunu həmin yeri adı ilə "Uzundərə" adlandırıblar. Ənənəvi toy rəqsi olan "Uzundərə", adətən qızlara, gəlinlərə, bəzən isə qocalara aid edilir. Bu rəqs olduqca cazibəli, aram, incə və lirik melodiyadır. Zərif və emosional kompozisiyalı "Uzundərə" üçün adi gəziş, yana gəziş, süzmə və s. xarakterikdir. Bu rəqs qadın ifası üçün daha səciyyəvi, daha uyğun və münasib olduğu üçün əsasən, gəlin gətirilən vaxt qadınlar ifa edirdilər. Bəzi yerlərdə bu rəqsi kişilər, bəzən də qadınla kişi oynayır. Dahi Üzeyir Hacıbəyli "O olmasın, bu olsun" operettasında bu xalq rəqsinin melodiyasından istifadə edib.

Yeri gəlmişkən, həmişə Uzundərə adı çəkiləndə bir xatirə yadıma düşür. Təxminən 1986-cı ilin yanvarı idi. Qış tətili olduğu üçün dərsə getmirdik. Məktəbdən zəng etdilər ki, sinif yoldaşlarınızdan bir neçəsini götürün , gəlin məktəbin qarşısına . Gedirik Yeni İl Şənliyi Keçirməyə. Bir neçə sinif yoldaşıma zəng edib məktəbin qarşısına yığıldıq .

Düşünürdük ki, yəqin bizi Ağdamın mədəniyyət evinə aparacaqlar. Xülasə, bizi gətirib , bərri-biyaban olan həmin Uzundərədə avtobuslardan düşürdülər. Demək olar ki, Ağdamın bütün məktəbliləri bura yığılmışdı.

Nağara, qarmon... Orada bir çal-çağır başladı ki. Böyük siniflər olduğumuz üçün oynama utandığımız bir vaxtda Gülgəz müəllimə bizə elə bir qıyqacı baxış baxdı ki, hamımız tökülüşdük ortaya... Oynadıq ee! Təsəvvür edin, oynaya -oynaya gözümüz qalıb Gülgəz müəllimin üzündəki, Allah bu nə vaxt insafa gəlib deyəcək ki, siz ortanı tərk edin, o biri uşaqlar gəlsin rəqs eləsin! Bu da həmin günlərdən qalan yeganə foto.

### *Ağdam boyda, Ağdama təhlükə - Uzundərə hərbi bazası*

Hələ sovet hökümətinin vaxtında o ərazidə böyük bir hərbi hissə yerləşdirilmişdi. Daha dəqiq, SSRİ Müdafiə Nazirliyinin Zaqafqaziya Hərbi Dairəsinin artilleriya döyüş sursatlarının anbarı və SSRİ Ordusunun 44060 nömrəli hərbi hissənin hərbi bazası yerləşirdi. Ətrafına heç kəsi yaxınlaşmağa imkan verməzdilər. Hər şey yerin altında olduğu üçün oralarda nələr oldunu da bilməzdik.

Onu da xüsusi qeyd edim ki, 1970-75 -ci illərdə həmin baza hərbi mühəndis Camal Əhmədovun iş icraçılığı ilə tikilib. 44060 nömrəli hərbi hissənin



komandiri kapitan Əliyev Adil Əhməd oğlu və təsərrüfat üzrə rəis müavini Hüseynov Qurban Məmi oğluna təhvil verilib. Rəis müavini Q. Hüseynovun saytımıza bildirdiyi məlumata görə, orada 40 ədəd hər biri 50 vaqonluq yerüstü sursat anbarı olub və onlardan 400 vaqonu Qrad Reaktiv Raket silahı ilə dolu olub. Anbarın kənarı torpaq təpələrlə əhatələnib ki, əgər partlayış olarsa, yaxınlıqdakı yaşayış məntəqələrinə zərbə dəyməsin.

1990-cı ildə Sovet ordusundan kifayət qədər yararlanaraq dişinə qədər silahlanmış erməni terror dəstələri və özünümüdafiə batalyonları camaatımıza hücumlar edəndə, qırğınlar yaratmağa təzə-təzə başlayanda bizim xalqın nümayəndələrində adi "quş tüfəngi" də yox idi, öz məmurlarımız tərəfindən yığdırılmış, ruslara təhvil verilmişdi. Ağdamın qeyrətli, pullu oğlanları öz ciblərinin pulu ilə özümüzün müdafiə dəstələrinə haralardansa silah alıb verir, onları vaxtaşırı güllə və digər xırda çaplı silahlarla təmin edirdi.

1991- Bax, həmin dövrdə artıq sovet rejimi də çökmək üzrə idi , kimsə bu çökmədən istifadə edib, məzlum duruma düşmüş Azərbaycan xalqına, Qarabağda, Ağdamda yaranmış özünümüdafiə dəstələrinə kömək olmalıydı.

1990-cı ilin yanvarın 13-də bazaya hücum təşkil edildi. Sovet əsgərləri ilə baş verən silahlı qarşıdurmada hücum edən 6 nəfər həyatını itirdi. 2 gün sonra növbəti hücumda bir sovet əsgəri yaralandı. Mənbələrin verdiyi məlumatda deyilir ki, 1990-cı ilin yanvarın 18-dən 19-na keçən gecə bazaya yeni bir hücum edildi. Sovet əsgərləri hücum edənlərin avtomobilinə atəş açaraq onu partlatdılar, qarşıdurmada həmçinin bir Sovet əsgəri də yaralandı.

1990-cı ilin may ayının sonunda həyata keçirilən növbəti hücumda etnik azərbaycanlı olan bir Sovet əsgəri öldürülmüş və daha biri yaralanmışdı. Bu hücumun ermənilər və ya azərbaycanlıların təşkil etdiyi məlum deyil.

1991-ci ilin fevral ayında baş tutan daha bir hücumda bir Sovet əsgəri öldürüldü. Bu hücumun da azərbaycanlılar yaxud ermənilər tərəfindən təşkil edildiyi məlum deyil. 1991-ci ilin sonunda Sovet ordusu Uzundərə bazasını tərk etməyə başladı. Nəhayət 23-26 fevral 1992-ci ildə Ağdam milis (polis) idarəsinin şəxsi heyəti, ona tabe polis batalyonu (taboru), yerli könüllü silahlı dəstələrin iştirakı ilə Şellidən Xocalı şəhəri istiqamətində hücuma hazırlaşırdı. Lakin İdarə rəisi polis polkovniki İslah Paşayevin xüsusi rabitə vasitəsi ilə verdiyi əmrə uyğun olaraq onlar Uzundərə istiqamətində hücuma keçib bu bazanı ələ keçirdi. Sən demə, Uzundərə hərbi bazasının anbarında 728 vaqon artilleriya sursatı, 245 vaqon reaktiv mərmi, atıcı silah üçün 131 vaqon güllə saxlanılırdı. Bu sursatlara güllələr, qumbaralar, 76 mm-dan 152 mm-a kimi artilleriya mərmiləri, tank mərmiləri, Qrad və Smerç RYAS üçün raketlər, beş BMP-1, beş ədəd 110 mm doludağıdan mərmilər varmış...

Mənbələr qeyd edir ki, silah sursatın bir qismi qara bazarda satılıb, reaktiv raket sursatlarının saxlandığı yeşiklər isə döşəmə üçün tikinti materialı kimi istifadə edilib, bir miqdar döyüş və hərbi sursat nəzarətsiz şəkildə paylanıb, bir hissəsi isə ehtiyatsızlıq ucbatından sıradan çıxarılıb.

Sonradan həmin ildə (1992) baza yeni yaradılmağa başlanılan Azərbaycan ordusunun nəzarətinə verilib.

Uzun sözün qısası, Uzundərə məhz bu bazaya görə, Qarabağın ən diqqət mərkəzində olan ərazisi olub.Təsəvvür edin, Uzundərə yeraltı hərbi bazasının sahəsi Ağdam şəhərinin ümumi sahəsinə bərabərdir. (Bu obyektin hərbi məqsədlərlə istifadəsi "Böyük Qayıdış" layihəsi çərçivəsində müzakirə predmetidir). Ermənilər də, ruslar da, azərbaycanlılar da həmin bazanı ələ keçirmək üçün böyük risqlərə girib, itkilər verib. Amma ən pisi isə odur ki, ruslar bazanın ermənilərin ələ keçirməsi üçün onlara hər bir hərbi dəstək verdilər. Nəhayət 1993-cü ilin iyul ayında Ağdam işğal edilən gün ermənilər də, ruslarda Uzundərəni ələ keçirərək arzularına çatdılar. Yerdə qalan az miqdarda silahlar ermənilərin oldu.

Onu da qeyd edim ki, Ağdam rayonundan olan döyüşçülər, həm də ora döyüşməyə gələn eloğullar məhz o bazanın azərbaycanlılar tərəfindən ələ keçirilməsindən sonra döyüşlərin daha qızğın müstəviyə keçdiyinin şahidi idilər. Məhz 1992-ci ildən başlayaraq Ağdamın mərkəzi mütəmadi olaraq reaktiv mərmilərə, Top, Qrad və digər raket hücumlarına məruz qaldı. O mərmi yağışlarının altında Ağdamın məşhur Qarağacı qəbirsanlığına gedib orada ya şəhidləri, ya da mərmidən həlak olan mülki vətəndaşları dəfn etmək mümkün deyildi . Bax elə həmin məşəqqətli günlərdə rayonun ikinci Şəhidlər Xiyabanı Uzundərədə yerləşirdi. Əslində 1993-cü ildə ermənilər ağdamlılardan qisas almaq üçün ilk öncə qəbiristanlıqlara hücum edir, xüsusən şəhid məzarlarını təhqiramiz şəkildə dağıdırdılar. Uzundərədən yanıqlı qalan bu məlunlar buradakı şəhidlər xiyabanını da hədəf aldılar. Düşmənçiliklərini burda da sərgilədilər. Hazırda ərazidəki şəhidlər xiyabanı bərpa olunub. Şəhidlərin yaxınları da rahatlıqla gəlib oraları ziyarət edirlər. Elə Ağdama gedən hər kəs mütləq orada ayaq saxlayır, şəhidləri ziyarət edib, o təpəni sonra tərk edirlər.

Son olaraq bunu da deyim, day sizi yormayacağam!

İşğal vaxtı bizə gözdağı vermək üçün ermənilər bütün hərbi təlimlərini Uzundərədə keçirirdilər. Təmas xəttində olan kəndlərdə o təlimin gurultusu eşidilirdi. Çünki təlimdə də rusların bəxşiş verdiyi silah- sursatdan geninəboluna istifadə edirdilər. Elə yaralı, ağrılı günlərdən birində ağdamlı şairimiz Rəfail Tağızadənin bir şeiri qarşıma çıxdı:

***Bu nə toydu, Uzundərə-***
***tar-qavalın qırıq-qırıq,***
***çadırların cırıq-cırıq,***
***qəlblər ölü, sınıq-sınıq.***
***Havana tanklar oynayır,***
***toyunda mərmi partlayır,***
***bu nə toydu, Uzundərə?***
***Dərd dolusu mənim dərəm,***
***dərdim mənim, Uzundərəm.***

***Gəlinlər getməz bu yolu,***
***gül bitirməz sağı-solu,***
***kim qaldırar burda qolu,***
***dərd dolusu mənim dərəm,***
***dərdim mənim, Uzundərəm.***
***Nələr çəkər başın hələ,***
***bu dərd sığmaz göyə, yerə,***
***oynayırıq sənsiz yenə:***
***bir hava çal, "Uzundərə"***
***çal, kəsik qolum oynasın,***
***yox olan yolum oynasın,***
***boş qalan solum oynasın,***
***qoy durub ölüm oynasın.***
***Ürəksiz oğlun oynasın***
***ağrıları kürəyində,***
***qovruluram ürəyimdə,***
***dərd dolusu mənim dərəm,***
***dərdim mənim, Uzundərəm.***

***Yolun hara-Şuşayamı,***
***sağın-solun şiş qayamı,***
***yaylağa köçlər daşıyan***
***karvanlar düşdü "hay"amı?***
***Mərmi dolu maşın gedir***
***faytonlar gedən yolları,***
***içində ölüm aparır,***
***toyların fəryad qoparır,***
***dərd dolusu mənim dərəm,***
***dərdim mənim, Uzundərəm.***

Hörmətli şairimizin bu şeiri məni kədərə boğsa da, qəfil yadıma düşdü ki, boy, mən niyə kədərlənim axı? Ağdamda bizdədir, Göytəpədə bizdədir, Uzundərəm də bizimdir, bizdədir və heç bir erməni terrorçusu cəsarət edib o tərəflərə üzükməz! Min dəfə Allaha şükür etdikdən sonra dilimdən bu kəlmələr çıxdı: Bütün hallarda şəhidlərimizin müqəddəs ruhları qarşısında baş əyirəm, Qazilərimizə Allahdan şəfa diləyirəm! Dünyanın bu çətin məqamında xalqıma əminamanlıq, dözüm, səbr və qurub-yaratmaq həvəsi arzulayıram!

**Əntiqə Rəşid**